# İSLAMDA HİCAB

Bakı-1994

**Bismilləhir Rahmənir Rahim.**

Böyük Allahdan ümüdümüz budur ki, dünyada qadınlar (xanımlar) islam dininin əzəmətli, ali olan təlimlərindən bəhrələnib öz azadlıqlarını böyük vüqarla əldə edə bilsinlər. Cəmiyyətin xoşbəxtlik və bədbəxtçiliyi qadınların (xanımların) vücudundadır.

**İmam Xomeyni (r.ə)**

İ $\frac{4702060102-10}{029-94}$ Elansız

**İSBN 5-86106-033-9**

**BAKI-SABAH-1994**

# MÜQƏDDİMƏ

Dünyada qadınlara məzlumluq giriftarçılığından nicat vermək hər kişinin müqəddəs borçudur. Qadınlar Allaha əmanətdirlər və hər bir kişini bir qadın - ana doğubdur. Allah əmanəti isə gərək hər zülm fəsadlarından əmanət kimi, göz bəbəyi kimi qorusun.

Hicab qadınların mübarək səngəridir. O səngərin qorunması vacibdir. Naməhrəmdən qorunmaq, yəni (bütün nəfsani və şəhvani hisslərdən çəkinmək) əllər və üzdən başqa bədəni hər yerini örtmək, bağlı gəzmək Allahın əmridir, vacibdir. Xanımların yeganə xoşbəxtliyi yalnız hicablı olmaqlarındadır. Xanımların açıq-saçıq gəzməsi haramdır. Haram o şeyə deyilir ki, onu əmələ gətirmək böyük günahdır və dünyada rusvayçılıqdır. Axirətdə isə nəticəsi əzabdır. Əgər bir xanım açıq-saçıq gəzərsə onun bədən üzvlərinin açıq olan yerlərini (hansı ki, o yerlərin görülməsi haramdır) görən hər bir cavan şəxsi özünə qarşı həvəsə salar. Həvəsə düşən və şəhvət hissləri oyanan cavanı günaha vadar edər. Həmin cavanı həvəsə salan və onun günaha batmasına bais olan xanım açıq-saçıq gəzdiyi üçün böyük günah sahibidir. Xanımların açıq-saçıq gəzməsi bir günahdır, özgələrin günah etməsinə bais olmaq başqa bir günahdır və ən başlıca hicaba - Allah əmanətinə xəyanət etmək isə hədsiz dərəcədə çox iyrənc günahdır. Beləliklə, xanımların hicablı olmaları (yəni bağlı gəzmələri) Allahın ən böyük əmanətindəndir.

Möhtərəm müsəlmam xanımlar, bacılar, Allah əmanətini qorumağa tələsin!

İlahi əmanət olan insanın vücudu əmanət sahibinə verildiyi kimi qaytarılmalıdır. İnsan fitrətən dünyaya pak gəlir və paklığını qoruyub gəldiyi kimi keçməlidir. Əgər vücud fitrətdən gəlibsə, deməli pak olmalıdır və bu paklıq təkcə su ilə bədəni təmiz olması ilə mənalanmır. Paklıq daxili və xarici (batini və zahiri) səpkilərdə xülasələnir. Paklığın əvvəlinci mərhələsi Allahın varlığını, birliyini dərk edib qəbul etməkdir. Bunu etməyən Allahın əmanətinə xəyanət etmiş olar. Nəticədə xəyanətkar cazəsına çatar. Əgər bu xəyanət bilə-bilə edilmiş olarsa cəzası çox ağır olacaqdır, əllbətdə əgər bir şəxs bilmədən halal və haramı ayırd edə bilməyirsə əvvəldən gərək məsələni öyrənsin. Onun bilməzlikdən xəta elədiyi rəhmli Allah tərəfindən nəzərə alınar, inşallah.

Amma bir qadın çörəkdən ötrü və azacıq cimaim ləzətlər xatirinə Allah əmanətinə xəyanət edərsə onu böyük cəza gözləyir. Dünya malı və dünya ləzzətləri ötəri və keçicidir. Əgər cism və ruhumuzu çirkin və haram olan şeylərlə nöqsanlı ediriksə, deməli, həmin nişanə və izlər cism və ruhumuzda öz əksini tapır və beləliklə duyğu üzvlərimiz həmin nişanə və izləri foto-surət və lent yazısı kimi özündə saxlayır. Beləliklə hardasa, hacansa keşmiş günlər ərzində gördüyümüz, eşitdiyimiz, toxunduğumuz, daddığımız və s. kimi duyğularımızla qazandığımız keyfiyyətlər üzə çıxaracaqdır və biz xəcalət çəkəcəyik. O şeylər ki, Allah haram edib onun kökünü araşdırmaqdansa yaxşısı budur ki, buyrulan kimi əməl etmək daha ağıllı təklifdir. Çünki bizi yaradan Allah yaxşı bilir ki, məxluq üçün hansı şey xoşluq gətirər və hansı şey onu naxoşluğa salar.

Hicab qadının mübarizə səngəridir. Qərblilər və şərqlilər barəsində xanımların hicablı olmaları fəsadçıların müqabilində əks təsir göstərə bilən bir əməldir, aşıq-saçıq gəzənlərə ağır yükdür. Varlı təbəqənin əksəriyyət qızları və qadınları özlərini ayıq bilirlər və təsəvvür edirdilər ki, qadınlar ancaq dini səbəbdən bağlı gəzərlər və bu onların nöqsanıdır. Müsəlman qadınlar hicablı gəzməklə varlı təbəqənin gövdəsinin bir qisminə qüvvətli zərbə endiririrlər. Lakin bəzən müsəlman qadınlar açıq-saçıq gəzməklə düşmənə kömək edirlər.

Hicabın fəlsəfəsi zənənləri qəfəsə, zindana salmaq deyildir, onları şəhvət zindanından azad edərək çox əzəmətli məqamlara ucaldan vəziyyətdir. Qədirli, möhtərəm müsəlman bacı-qardaşlar, İmam Xomeyninin (r.ə) öz kitabındakı cədvəldə müsəlman qadınlarla zalımlar rejimində tərbiyə olunmuş qadınların müqayisəsini nəzərdən keçirin.

*Vəs-səlamu əla mənit-təbiəl-huda*

Hidayətə tabe olanlara Allahın salamı vardı.

**Bismilləhir Rahmənir Rahim.**

Tarix boyunda qadın iki mərhələ və dövrdə məzlum olmuşdur. Yəni zülmə məruz qalmışdır. Bu iki dövrün birincisi cahiliyyət dövrünə (islamdan əvvəlki dövr) aiddir. Həmin dövrdə qadın heyvana bənzər, bəlkə də ondan aşağı səviyyədə olan bir varlıq kimi sayılırdı. Əziz olan islam, qadını bu bataqlıqdan xaric elədi.

Qadın şəxsiyyətinin tarix boyu zülmə məruz qaldığı ikinci dövr bizim yüksək inkişaf eləmiş mədəniyyətə malik olan müasir əsr və zamanımızdır. Onu azadlıq adı ilə şərafətli və izzətli olan məsum və mənəvi məqamından aşağı salaraq zülmlərə məruz qoyub, uçuruma yuvarlatdılar.

*İlahi ustad*

## İSLAMDAN QABAQKI DÖVRDƏ QADINA OLAN ZÜLMLƏR

İslamdan qabaqkı dünyada qadının məzlumiyyətini iki dövrə bölmək olar:

**1.** Vəhşiliklər ilə dolu olan bu dövrdə qadın bir insan ünvanı ilə tanınmırdı. Sərt və qaba minnətlər ilə onunla rəftar edirdilər. Görülən fiziki işlərin ən ağırı və ən çətini qadınların öhtəsinə düşürdü. Həmçinin kişinin öz arvadını satmağa və ya kirayə verməyə ixtiyarı vardı.

**2.** İran, Misir, Roma və Yunan mədəniyyələrinin inkişaf dövrəsi idi ki, bu zamanda tövhidi (tək Allahçılıq) dinlərin təsiri nəticəsində qadın insan təbəqəsinin cüzindən sayılırdı. Bundan qadın tədricən kişi ilə şərikli həyat keçirmək huququna malik oldu. Lakin bütün bununla belə onlar ictimai və hüquqi bir şəxsiyyətə malik deyildilər.

Qadınlar hər bir cəhətdən kişiyə tabe ola bilərdilər.

Qadın Yunanıstanda ticarət və əmtə növü kimi bazarlarda alınıb satılardı. Habelə o, əsrin qadınlarının əri öləndən sonra yaşamağa haqqı yox idi. Romada ailənin başçısı olan ata, təkcə qızını satmaq huququna malik deyildi. Bəlkə lazım olan vaxt onun həyatına son qoya bilərdi. İstənilən vaxtda qadını öldürmək səlahiyyəti ərə gedəndən sonra onun qanuni sahibi sayılan ərinə verilərdi. Qədim Avstraliyada qadınları əhliləşmiş heyvan kimi sayardılar. Hətta aclıq olan vaxtda onları öldürüb ətlərini yeyərdilər. Herodotun yazdığına görə qədim

Babilistanda ərə getməyə yaşı çatan qızları, əmtəə növü kimi fərqli qiymətlər ilə satmaq üçün nümayişə qoyardılar.

Hindistanda qadının əri ölərkən onun ruhunu təklikdən və yalqızlıqdan xilas etmək üçün arvadını da onunla birgə diri-diri yandırırdılar. Qadınları diri-diri yandırmağı hind qadının fədakarlığı kimi qələmə verərdilər. Yahudilərin arasında isə qadın ata irsindən sayılırdı. Bir oğlan uşağının doğulması şadlığa və bayrama səbəb olardı. Lakin qız uşağı doğulsaydı bu mövlud öz ardınca ailəyə qəm-qüssə və kədər gətirərdi. Məsihilərin (xristianların) arasında fəhş və çinsi fəsad özünün ən çox inkişafını rahiblik və zahidliyin məsihi kişilərin və qadınların arasında ifrat dərəcədə yüksəlməsindən sonra tapdı. Hətta iş o yerə gəldi ki, Lüter kilsəsinin islahatından ötrü müraciət göndərdi.

Ona görə ki, kilsənin gəlirindən çox hissəsi işrətxanaların vergisindən və kilsələrin fəhş yığıncaqları boyu qoyduqları sandıqlara bəzi adamların günahlarının bağışlandırmaq ünvanı ilə ciblərindən tökdükləri kəffarə pullarından əmələ gəlirdi. Ərəbistanda kişilər öz qızlarını müharibələrdə düşmənlərin əlinə keçib onlara uşaq doğmasın deyə doğulan kimi diri-diri basdırırdılar. Bəziləri isə fəqirliyin qorxusundan öz qız uşaqlarını doğulan kimi diri-diri basdırırdı. Habelə qadınlar müharibələrdə iştirak etmədiklərinə görə irs aparmaq hüququndan məhrum idilər. Onları ölənin var-dövlətinin bir hissəsi kimi hesab edərək irsə bölünənə, irsə bölünən əmlakın siyahısına daxil edirdilər. Pul qazanmaq qəsdi ilə onları cinsi fəsada (zinaya) məcbur edirdilər. İslam bütün bu vəhşi adət və sitəmləri Ərəbistan mühitindən kənara ataraq öz inqilabını dünyaya sadir etdi və o dövrün qadınlarına nicat bağışladı.

## İSLAM DÜNYA QADINLARINA NİCAT BAĞIŞLAYANDIR

İslam elə bir zamanda Ərəbistan yarımadasında zühur elədi ki, qadınlar artıq öz heysiyyətlərini əldən vermişdilər. İslam onları yüksəldib ucaldaraq kişilər ilə bərabər hüquqlu bir fərd qərar verdi. Bəli, islam zühur eləyən vaxtda qadın bütün dünyada, xüsusən Ərəbistanda o qədər məzlum idi ki, Avropa ölkələrində və başqalarında şeytandan və heyvanat cüzvündən sayılırdı. Onu insan hesab etmirdilər. Bütün bu münasibətlərə qarşı islam elan elədi ki, qadın və kişinin birləşməsindən insanlar meydana gəlir. Qadın ilə kişi bir-birini o qədər tamamlayır ki, qadını ərindən ayrılmış təsəvvür edəndə elə bil ki, onun cinsini və bədəninin yarısının ayrılması hadisəsi kimi başa düşülür.

Quranın «Nisa» surəsinin 1-ci ayəsində deyilir:

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ يَا أَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ مِنْ نَفْسٍ وَاحِدَةٍ وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُمَا رِجَالًا كَثِيرًا وَنِسَاءً ۚ وَاتَّقُوا اللَّهَ الَّذِي تَسَاءَلُونَ بِهِ وَالْأَرْحَامَ ۚ إِنَّ اللَّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا

***«O Allah ki, sizi bir nəfsdən yaratdı və ikinci tayını da cüftündən ondan yaratdı. Bu təzə yaranmış qadın və kişidən də çoxlu kişi və qadın yaratdı».***

Hələ dünyanın bir sıra millətləri qadının dindar olub-olmaması məsələsini səhih və düzgün bilmədiyi bir zamanda, habelə müqəddəs kitabları oxumağı qadınlara qadağan eləyən

bir vaxtda islam elan elədi ki, qadın da kişilər kimi öz əməllərinin savabına yetmək hüququna malikdir. Quran müsəlman qadınları ilə xristian qadınlarını qarşılıqlı suallaşmaya dəvət edidi. Peyğəmbər (s) əməli olaraq Fatimeyi-Zəhranın (s.ə) islam tərəfindən bu işdə iştirak etmək üçün suallaşma mərasiminə getməyini təyin elədi.

فَمَنْ حَاجَّكَ فِيهِ مِنْ بَعْدِ مَا جَاءَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَأَبْنَاءَكُمْ وَنِسَاءَنَا وَنِسَاءَكُمْ وَأَنْفُسَنَا وَأَنْفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَلْ لَعْنَتَ اللَّهِ عَلَى الْكَاذِبِينَ

***«De: «Gəlin oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, özümüzü və özünüzü çağıraq, sonra isə dua edib yalançılara Allahın lənət etməsini diləyək».***[1]

O əsrdə dövlətli qoca qadınlar ilə onlar gözəl olmasalar da belə evlənirdilər, kişilər isə belə və bu cür arvadlardan irs aparırdılar. Onların pul və sərvətlərinə sahib çıxardılar. Belə bir işin əleyhinə Qurani-Kərim buyurur:

ا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا يَحِلُّ لَكُمْ أَنْ تَرِثُوا النِّسَاءَ كَرْهًا ۖ

***«Ey iman gətirənlər! (Ərləri ölmüş) qadınlara zorla varis çıxmaq sizə halal deyildir!»***[2]

Qadına öz mehriyyəsini bağışlatdırmaq üçün əzab və əziyyət verildiyi bir zamanda Quran bu işin əleyhinə və əksinə olaraq buyurur:

وَلَا تَعْضُلُوهُنَّ لِتَذْهَبُوا بِبَعْضِ مَا آتَيْتُمُوهُنَّ إِلَّا أَنْ يَأْتِينَ بِفَاحِشَةٍ مُبَيِّنَةٍ ۚ وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ ۚ فَإِنْ كَرِهْتُمُوهُنَّ فَعَسَىٰ أَنْ تَكْرَهُوا شَيْئًا وَيَجْعَلَ اللَّهُ فِيهِ خَيْرًا كَثِيرًا

***«(Qadınlar) açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin (mehrin) bir hissəsini geri qaytarmaq***

---

[1] «Ali-İmran» surəsi, ayə 61.
[2] «Nisa» surəsi, ayə 19.

***məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin. Əgər onlara nifrət etsəniz (dözün). Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun».***[1]

O dövrdə kişilər təzədən evlənmək üçün öz qadınlarını fəhşa və əxlaqsızlıqda ittiham edirdilər ki, ta məcbur olaraq öz mehriyyəsini ərinə bağışlayıb canını azad eləsin. Bu əməlin də ziddinə olaraq Quran buyurur:

وَإِنْ أَرَدْتُمُ اسْتِبْدَالَ زَوْجٍ مَكَانَ زَوْجٍ وَآتَيْتُمْ إِحْدَاهُنَّ قِنْطَارًا فَلَا تَأْخُذُوا مِنْهُ شَيْئًا ۚ أَتَأْخُذُونَهُ بُهْتَانًا وَإِثْمًا مُبِينًا

***«Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan birinə yığın-yığın mal vermiş olsanız belə, heç bir şey geri almayın! Məgər (verdiyinizi) böhtan atmaq və açıq-aşkar günah işlətməklәmi geri alacaqsınız?»***[2]

Həmin dövrdə qadını əmtəə növü kimi alıb satırdılar və qadının mehriyyəsini onun vəlilərinə verirdilər ki, onu öz mülkləri eləsinlər. Quran bu töhmətli və təhqir gətirən işi qadına qarşı olan bir cinayət hesab edərək elan elədi ki, mehriyyəni qadına onu özü üçün mülk eləmək xatirinə verməzlər. Qadına qarşı olan məhəbbət və sevgi ünvanı ilə və ya kişinin doğruçuluğunu və sədaqətini sübut edən ənam ünvanı ilə verərlər.

وَآتُوا النِّسَاءَ صَدُقَاتِهِنَّ نِحْلَةً ۚ فَإِنْ طِبْنَ لَكُمْ عَنْ شَيْءٍ مِنْهُ نَفْسًا فَكُلُوهُ هَنِيئًا مَرِيئًا

---

[1] «Nisa» surəsi, ayə 19.
[2] «Nisa» surəsi, ayə 20.

***«Qadınlara öz mehrlərini könül xoşluğu ilə verin! Əgər onlar qəlbən, öz razılıqları ilə bundan sizə bir şey bağışlasalar, onu halal olaraq, nuşcanlıqla yeyin!»***[1]

Yer üzündə olan millətlərin heç biri qadının bir şeyə sahib və malik olmaq huququnu tanımadığı bir zamanda Quran qadının iqtisadi istiqlaliyyətini irəli sürdü. Önu özü əldə etdiyi və qazandığına sahib və malik saydı. Quran buyurur:

وَلِلنِّسَاءِ نَصِيبٌ مِمَّا اكْتَسَبْنَ ۚ وَاسْأَلُوا اللَّهَ مِنْ فَضْلِهِ ۗ إِنَّ اللَّهَ كَانَ بِكُلِّ شَيْءٍ عَلِيمًا

***«Həmçinin qadınların qazandıqlarından payları vardır. Allahdan (bir şey istədikdə) Onun fəzlindən istəyin ki, həqiqətən Allah hər bir şeyi biləndir (hər bir kəsə onun xeyrinə olanı verir)».***[2]

İngilis dövlətində qadınlar 1870-ci ilə qədər, Almaniya dövlətində 1900-cü iləcən, İsveçrə qadınları isə 1907-ci ilin tamamına kimi öz şəxsi dövlət və əmlakının sahibi və maliki sayılmırdı. Belə bir dövrdə və zamanda qadını yuxarıda deyilən tərzdə təhqir edirdilər, habelə onların ictimai işlərdə kişilər ilə birgə iştirak etmək səlahiyyətini inkar eləyirdilər. İslam bunun əksinə olaraq qadınlara ictimai işlərdə iştirak etmək səlahiyyəti verdi.

Dünya millətlərini heç bir qadın üçün hər hansı bir hüquqa qail olmadığı zamanda Quran bu münasibətlərin əksinə olaraq buyururdu:

يَا بَنِي آدَمَ لَا يَفْتِنَنَّكُمُ الشَّيْطَانُ كَمَا أَخْرَجَ أَبَوَيْكُمْ مِنَ الْجَنَّةِ يَنْزِعُ عَنْهُمَا لِبَاسَهُمَا لِيُرِيَهُمَا سَوْآتِهِمَا ۗ إِنَّهُ يَرَاكُمْ هُوَ وَقَبِيلُهُ مِنْ حَيْثُ لَا تَرَوْنَهُمْ ۗ إِنَّا جَعَلْنَا الشَّيَاطِينَ أَوْلِيَاءَ لِلَّذِينَ لَا يُؤْمِنُونَ

---

[1] «Nisa» surəsi, ayə 4.

[2] «Nisa» surəsi, ayə 32.

***«Ey Adəm oğulları! Ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurub valideyninizi (Adəm və Həvvanı) Cənnətdən qovdurduğu kimi, Şeytan sizi də aldadıb yoldan çıxartmasın. Şübhəsiz ki, o (Şeytan) və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Biz şeytanları iman gətirməyənlərin (kafirlərin) dostları etdik».***[1]

Qadınlara səs hüququndan məhrum olan zamanda islam, qadınlarının kişilər ilə bərabər səs və rəy vermək hüququna malik olmalarını rəsmi olaraq tanıdı. Allah-Taala Peyğəmbərə göstəriş verdi ki, onların rəy və beyətlərini qəbul eləsin. «Qadınlar yalnız kişilərə xidmət etmək üçün yaranmışdır» kimi mövcud puç və mövhum fikirlərin müqabilində Quran belə elan edir:

هن لباس لكم و انتم لباس لهن

***«Qadınlar sizin üçün libasdır, sizdə qadınlar üçün libassınız».***[2]

*Bir sıra şərh və izahat.* Qurani-Kərim kişinin qadına, qadının da kişiyə ona görə libas adlandırmışdır ki, libas insanın abır və ləyaqətini örtüyüdür. Bir libas ki, insanın həyalı əzasını örtər, bu halda şəxsin şərəf və heysiyyətini hifz etmiş olar. Lakin bunu da bilmək lazımdır ki, libas, sahibinin mühafizəsində durub ony soyuqdan, istidən hifz edər, öz növbəsində libası geyənin də boynuna haqq gəlir ki, öz libasını oğrunun xəyanətindən və tez köhnəlib sıradan çıxmaqdan hifz eləsin. Buna görə də libas və libası geyən kəs bir-birini lazımınca hifz edib yaşatmalıdır. Habelə qadında və kişidə də mənəvi, ruhi və hissi mənsub olan bir sıra ehtiyaclar var ki, bütün bu ehtiyacların üstünü qadında kişi, kişidə qadın kimi bir

---

[1] «Əraf» surəsi, ayə 27.
[2] «Bəqərə» surəsi, ayə 187.

varlığın birgə yaşaması nəticəsində libaslandırıb örtmək olar. Bu iki fərqin - qadın və kişinin bir-birinə qarşılıqlı surətdə ehtiyacları vardır. Bir-birinizin xidmətində olaraq bu ehtiyaclarınızı təmin edin. Qadınlara qarşı bütün bu sərt və qaba münasibətlərin ziddinə olaraq Quran buyurub:

وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ ۚ

***«Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin»***.[1]

Əziz olan Peyğəmbərimiz müsəlmanlara özünün axırıncı müraciətlərinin birində buyurub: «Ey kişilər, sizin boynunuzda qadınlarınızın haqqı vardır. Mən sizə vəsiyyət və sifariş edirəm ki, öz qadınlarınıza (arvadlarınıza) yaxşılıq edim. Ona görə ki, onlar sizin əlinizdə olan ilahi bir əmanətdirlər və ancaq ilahi Quranın icazəsi ilə sizə halal olublar».

Bizim dövrdə məzlum qadınları tez bir zamanda fəsada çəkməyi, onları yoldan azdırıb pozaraq istifadə etməyi, habelə necə-necə planlanları icra etməyi qarşılarına məqsəd qoyublar. Zahirdə aldadıcı olan «mütərəqqi» qadın adı ilə bu insan becərib, tərbiyə edən müəllim təbəqəsinə qarşı (qadınlara) gör necə zülmlər elədilər.

## KAPİTALİZM DÜNYASINDA QADINA QARŞI OLAN ZÜLMLƏR VƏ ONUN MƏZLUMİYYƏTİ

İstismar dünyası qadınlar üçün yeni bir məzlumiyyəti hədiyyə gətirdi. Bu dəfə azadlıq adı altında qadına qarşı zülmlər elədilər. Onu islam verən məqam və izzətdən, habelə mənəvi şərafətdən endirərək fəsada çəkdilər. Qərbdə - Avropa ölkələrində qadın kapitalın xidmətinə gətirildi. Qadından öz

---

[1] «Nisa» surəsi, ayə 19.

əmtəə və cinslərini satmaq və təbliğ etmək üçün gəlincik kimi, habelə bəzək və zinnət kimi işlədilən vasitələr düzəltdilər. Sonra qadınları mağaza və yarmarkalarda müştəri cəlb etmək üçün maniken (müqəvva) kimi kapitalistlərin əl alətləri qərar verdilər. Yüz minlərlə Qərb qadın və uşaqları fəhşa işlərinə, oğurluğa və narkomaniyaya çəkdilər. Yaxud onlardan şəhvət və etiraslarını söndürmək və fəhşa gecə əyləncələri qumar, habelə pornoqrafik jurnalları və filmlərin hazırlamaq üçün alət və dilək kimi istifadə etdilər. Nəticədə onları ruhi və cinsi xəstəliklərə, habelə narkomaniyaya mübtəla elədilər. Onlar qadın azadlığını məhz bu cür təsəvvür edirlər. Onlar qadınları restoranlarda qab yuyan, döşəmə yuyan və süpürən, carçı, müştəri çağıran, yemək-içmək məqamınacan gətirib çıxartdılar. Həmçinin mağazalarda satıcı, idarələrdə makinacı, xiyabanlarda gözətçi vəzifəsinəcən onları «yüksəltdilər». Nəticədə talaq (boşanma) Qərb dünyasında o qədər genişləb ki, hər il milyonlarla insanlar bir-birindən ayrılır. Buna görə də dünyanın bir çox yerlərində hər iki evlənəndən biri boşanır.

## KOMMUNİZM HAKİM OLAN ÖLKƏLƏRDƏ QADINA QARŞI OLAN ZÜLMLƏR VƏ ONUN MƏZLUMİYYƏTİ

Kommunist ölkələrində də ailəyə mənsub rabitələr burjuaziya quruluşunun nişanəsi və əlamətlərindən sayılır. Buna görə də onlar çalışıb səy elədilər ki, qadını kişinin əsarətindən azad etmək adı ilə ailənin isti və mehriban ocağını qadının əlindən alsınlar. Qadınları yoxsulluqlara, min cür məhrumiyyətlərə və tək yaşamağa çəkərək dövlət müəssisələrini, zavod və fabriklərin əsarəti altına gətirdilər. Bütün bu məqsədlər üçün Sovetlər 38-ci ildə bir qanun

çıxartdılar ki, bu da boşanmanı evlənməkdən asan elədi. Nəticədə boşanma evlənmə ilə müqayisədə 44 %-ə çatdı. Sovet ölkəsində nəşr olunmuş son və axırıncı hesablamaya əsasən kommunist və xristism yaşayan məntəqənin əksinə olaraq Rusiyanın müsəlmanlar yaşayan məntəqələrində İslam dininin təsiri nəticəsində ailənin əsilliyi və ailəyə mənsub rabitələrin və evlənmənin, habelə nəsil artımının səviyyəsinin yuxarı olması hadisələri hələ də öz yüksək səviyyəsində saxlamaq üzrə davam edir.

Yuxarıda sayılan hadisələr nəzərə çarpacaq şəkildə artaraq sovet dövlətini və rusları qorxuya və nigarançılığa saldı. Ona görə bunlar qorxuya düşdülər ki, əgər müsəlmanların artımı belə getsə bu əsrin sonunda müsəlmanların sayı kommunistlərə və ruslara nisbət artıq olacaq. Etimal var ki, belə olan surətdə müsəlmanlar hökuməti ələ ala bilərlər. Xüsusən İran İslam inqilabı nəticəsində Sovetlərdə İslamı hərəkatlar artmaq üzrədir.

Hicabsızlıq qüdrətli və böyük dövlətlərin gücsüz və zəif müsəlman dövlətləri üçün qurduğu böyük bir tələdir.

يَا بَنِي آدَمَ لَا يَفْتِنَنَّكُمُ الشَّيْطَانُ كَمَا أَخْرَجَ أَبَوَيْكُمْ مِنَ الْجَنَّةِ يَنْزِعُ عَنْهُمَا لِبَاسَهُمَا لِيُرِيَهُمَا سَوْآتِهِمَا ۚ إِنَّهُ يَرَاكُمْ هُوَ وَقَبِيلُهُ مِنْ حَيْثُ لَا تَرَوْنَهُمْ ۗ إِنَّا جَعَلْنَا الشَّيَاطِينَ أَوْلِيَاءَ لِلَّذِينَ لَا يُؤْمِنُونَ

***«Ey Adəm övladları! Ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurub valideyninizi (Adəm və Həvvanı) Cənnətdən qovdurduğu kimi, Şeytan sizi də aldadıb yoldan çıxartmasın».***[1]

İstismarçı və şeytan dövlətlər qadını yalnız gözəlliyə, bəzəyə və zinətə məsrəf olunan bir vasitə kimi işlətdilər. Saxta

---

[1] «Bəqərə» surəsi, ayə 187.

və düzəltmə cəvahirat kimi örtüksüz, hicabsız və maniəsiz bir halda xiyabanda avara gəzib hərəkət edən halda gətirdilər. Bunlar oğlan və qızı ictimai mühitdən bir-birlərinə o qədər qarışdırdılar ki, nəticədə bunları heyvani və şəhvani azadlığa adət etdirərək qanuni evlənməyə və ailə qurmağa olan məhəbbətini aradan apardılar. Onlar (istismarçılar) işin həqiqi mənasında ailəyə aid olan birləşmə və peyvəndin kökünü sarsıtdılar. Bu qəlbin və fikrin sarsılmasına bais oldu. Qadın ev işlərini boşlayıb idarələrin qapısını açdı. Ya da azad məşğuliyyətlərin ardınca yollandı. Hətta bunlardan evdar olan qadınlar da məcbur oldular ki, öz təbii meyllərinin ziddinə olaraq hamiləliyin və uşaqlı olmağın qabağını alsınlar. Habelə özlərinin fitrətindəki ruha və hissə mənsub olan analıq hissiyatını və nəvazişini evdə it-pişik saxlayıb onlara məhəbbət ilə əvəz eləsinlər. Ev içində pişik, it saxlayan ailələr bu heyvanların yemək və içməklərinə külli miqdarda pul xərcləməyə başladılar. Bu xərclərin miqdarı o qədər çox və başgicəlləndiricidir ki, Amerikanın kənd təsərrüfatı naziri deyir: «Əgər biz evlərimizdə bəsləyib saxladığımız it-pişiyin yarısını boşlaya bilsək, o qədər ərzaq və yeyinti məhsulu əmələ gələr ki, bunlarla dünyanın bütün aclarının qarnını doyuzdurmaq olar».

Qərb qadınlarının uşaqlı olan dəstəsi də səhərdən axşamacan iş dalınca getdiyinə görə, habelə öz ata və analardan ayrı yaşadıqlarına görə məcburdular ki, uşaqlarını sübhdən axşamacan uşaq bağçalarına qoysunlar. Bu uşaqlar da ata və ana məhəbbətindən uzaq halda böyüyərək hələ yetkinlik yaşına çatmamış, ana və ata məhəbbətinin çatışmamazlıq, qəm və niskili ilə öz valideynlərini tərk edib onlardan uzaq və ayrı yaşamağı üstün tuturlar.

Qadının hicabı, yəni onun örtüyü Qərb və Şərq tərəfindən tovlanmışların Qərb və şərqpərəstləri bərabərində mübarizə səngəridir. Bunların bəziləri (Qərb və şərqpərəstlər) islam qadınlarının hicab və örtüyünü, rifah içində yaşayan, namus, qeyrət və həya çərçivəsinə sığmayan çoxlu qız və arvadların cinsi fəsadlığının müqabilində olanların hərəkatlarının ziddinə olan bir əməl kimu bilirlər. Bunlar təsəvvür edirlər ki, onlar kimi olmasınlar. Lakin özlərinin xəbəri olmadan onlara kömək eləmiş olurlar. Əslində hicabın fəlsəfəsi qadınları qəfəsə salmaq olmayıb, onları şəhvət zindanından azad edərək uca bir insani məqama çatdırmaq mənasındadır. Hicab düşmənlərə kömək etmək mənasında deyildir. Bəlkə kəsici bir silah kimi, düşmənin əleyhinə olan mübarizədə işlədilmək üçündür. Necə ki, İran və Əlcazair qadınları öz hicablarına riəyət etməklə çox kəskin və öldürücü zərbə varid elədilər. Lakin əksinə hicabsızlıq imperializmə kömək edir, necə ki, Əlcazair istismarçıları belə nəticəyə gəldi ki, əgər biz istəyiriksə parça ilə hörülmüş Əlcəzair cəmiyyətinə hücum edək və onların müqavimət qabiliyyətini puç və məhv edək, gərək əvvəlcə onların qadınlarına hücum edək. Lakin Əlcazair qadınlarının hicabı bu istismarçıların müqabilində yalnız bir qala kimi dayanmışdır.

Frantes Fenon Əlcazair inqilabını sosiologiya elmi nöqteyi-nəzərindən (ictimai-elmi nəzəriyyədən bəhs edən və cəmiyyətin təbəqələri haqqında bir elm) təhlil edərək mühüm bir fəsli Əlcəzairdə olan islami hicabın işğalçı qüvvələr əleyhinə işlədilən böyük bir mübarizə növü olmasına həsr etmişdir. Sosioloqlar tövsiyyə etmişdilər ki, əgər qadınları əldə tutsaq bütün qalan şeylər onların ardınca gələcək. İstismarçı quruluş və sistemlər hicablı qadınları ələ almaq işinə böyük və küllü miqdarda məbləğlər xərcləyirdilər. Onlar əvvəlcə özlərini

qadınların hüququnu müdafiə edən tanıtdırırlar. Sonra isə lətifələr, şüar və məslələr düzəldərək hicablı qadınları və onları müdafiə edən imanlı kişiləri orta əsrin vəhşilik dövrünün qalıqları kimi qiymətləndirərək təhqir edirlər. Hələ o vaxt – 1953-cü ildə Əlcazair cəmiyyətini ram eləmək üçün işğalçılar hicabsız və fəsadkeş Əlcazair qadınlarından öz mürtəce təbliğatları üçün istifadə edirdilər. Onlar Əlcazairin namuslu kişilərini avropalı işbuyuranların tapşırığı ilə məsğərəyə qoyub tənqid edirdilər. Məsələr, belə deyirdilər:

Ağa, sizin qadınınız çadralıdırmı? Nə üçün avropasayağı yaşamaq qərarına gəlmirsiniz? Nə üçün sizin arvadınızı kinoya, bara və kafeyə aparmırsınız? İşğalçı qüvvələr özlərinin ruhi və psixi fəaliyyətlərini yüksək və uca olan bir həddə, qadınların hicabına aid olan bir məsələdə səfərbərliyə alıb bu istiqamətdə cəmləşdirirdilər ki, bəlkə orda-burda onların öz dili ilə desək, bir qadına «qurtuluş verməyə» müvəffəq olalar. Avropalılar bu qələbədən kamil şəkildə həyacana gəldilər. Bu işdən çox nigaran idilər ki, nəyin bahasına olursa-olsun əlcazairli qadın əvvəlki vəziyyətinə qayıtmasın. Onu təzə bir məzhəbə dönmüş və iman gətirmiş adam kimi hər tərəfdən əhatə edərdilər. Hər bir müvəffəqiyyətdən sonra daha çox inanırdılar ki, (hicabı soyundurandan sonra) Əlcazair qadının möhkəm və alınmaz qalasına nüfuz etmək qərblilərin müsəlman cəmiyyətinə müsəllət olmaları üçün ən birinci və başlıca söykənəcək yer və istinad vasitəsidir. Frantes Fenonun ifadəsi ilə desək, hər bir çadır ki, başdan kənara atılır, qadının qadağan olunan yeri aram olmayan cəsur nəzər və baxışlara tuş gəlir. Bu zaman belə anlaşılır ki, Əlcazair öz islami varlığını inkar etməyə başlayıb və namusunun təhqir olmasını qəbul etmişdir. Hər bir çadır ki, atılardı güya cəmiyyət öz varlığını ərbabın məktəbinə təslim edərək bu qərara gəlirdi ki, Əlcazair xalqı ram olub itaət edərək

onun işğalının altında öz adət və qanunlarının dəyişdirilməsinə razıdır.

Qadının hicabının soyundurulması o deməkdir ki, gözəlliklər aşkar olur, sirrlər və gizli olan hissilər üryan qalır, daha doğrusu qadının özünü müdafiə müqaviməti sındırılır və gələcəkdə hər kim istəsə onu öz ixtiyarına ala bilir. Hicab isə əksinə bir boyaq və gözəllik dünyasını məxvi edərək sirrlər və gizli, xəlvəti nemətlərlə dolu olan bir dünya icad etmək deməkdir. Bir qadın ki, xarici ətrafı və başqalarını görür, lakin özü görünmür, bu iş sözün əsl mənasında istismarçıya bir sıra məhrumiyyətləri qəbul etdirmək deməkdir. Bəs nə üçün belədir? Ona görə ki, bu görmək birtərəflidir. Müxailf və müqabil tərəf qadını görmür. Deməli, bir qadın ki, onu görmək mümkün deyil, həm də onu təslim etmək mümkün olmaz. Bir qadın ki, şəhvətli və həyasız nəzərlə qarşılaşmır, deməli, onu məftun edib süst eləmək mümkün olmaz. Onlar ki, qiyam etmişlər elə şəhərin hicablı qadınları idilər. O kəslər ki, avropalıların darğaları və onları sevən idilər, əbədi bu işə qarışmadılar. İndiki təcrübə nişan verir ki, qadınlar hər şeydən çox öz azadlığını islam deyən libasda və geyimdə tapmışlar.

## II FƏSİL

İlahi ustamızın kafir qadınlar ilə müsəlman qadınları arasında həyati və ictimai prinsiplər olan fərqlər cədvəlini izahı.

### Müsəlman qadının 1-ci keyfiyyəti:

Qadın insana mənsub olan bütün fəaliyyətlərdə azaddır, yəni islamın insan şəninə layiq bildiyi bütün əməllərdə müsəlman qadın azaddır. Sonra isə mənəvi azadlığa malikdir. Yəni məqsəd və düşüncədə azaddır. Habelə əqli, zehni və əxlaqi fəaliyyətlərdə də azaddır. (İslam təyin edən həddi-hududda) Elmi azadlığa malikdir. Yəni Quran islam qadınının elm öyrənməyini vacib bilərək onun elm öyrənməyə sərf etdiyi bir saatı bir ilin ibadətinə bərabər sayıbdır. İslam, qadının istədiyi ixtisas və fənn üzrə təhsil almaqda azad hüquqa malik olmasını elan etmişdir (əlbəttə islami hicaba riayət etmək şərti ilə). Və nəhayət qadınlar hünəri azadlığa malikdirlər, yəni sənət, peşə və sənətkarlıq vərdişlərini seçməkdə azaddırlar. Hər bir halal olan məharət və ustalıqları da göstərməkdə azaddırlar. Müsəlman qadınının maşın sürməkdən kosmosa getmək sənətinə qədər bütün sənət və peşələri öyrənməkdə azad olduğu elan olmuşdur (əlbəttə hicaba riayət etmək şərti ilə).

### Müsəlman olmayan qadının 1-ci keyfiyyəti:

Şəhvət və həvəslərdə heyvani azadlığa malikdirlər. Yəni hər bir namusa, qeyrətə və iffətə malik olan bütün qeyd və şərtlərin hamısından azaddırlar. Şəhvət və etiraslarını, istək və tələblərini söndürməkdə heyvani azadlığa malikdirlər. Bu cür və bu növdən olan insani istəklərin icrasında müsəlman qadınının qabağını alan bütün insani və əxlaqi qeyd və şərtlərdən azaddırlar. Tanslarda, bar və kafelərdə, gecə əyləncələrində öz şəhvani həvəslərini icra eləyib ləzzət aparmaqda, bütün əsl insana mənsub məhdudiyyətlərin hamısından azaddırlar.

## Müsəlman qadının 2-ci keyfiyyəti:

Müsəlman qadını utanmaq və abırlı olmaq, habelə sadəlik kimi gözəl və nəfis insani keyfiyyətə malikdir. Həyalı olmaq hissi onun saf və imanlı əqidəsindən başlayıb, sərasər vücudunu tutaraq, mələk kimi incəlik bağışlar. Sahibi-hərəmdir, yəni o hərəkətlər ki, onu məsum və namus hisslərindən yoğurulmuş olan şəxsiyyətini sübut etdirər. Bunların hamısından müsəlman qadını məhrumdur. Müsəlman qadına öz halal vasitələrindən başqa digər qeyri-qanuni vasitələrdən istər cinsi, istər ruhi, istər nəzəri və istərsə də ləms (toxunma yolu ilə) və habelə eşitmək yolu ilə olan insani ləzzət aparmaq hissləri qadağan olunmuşdur. Bütün bu həyasız və həyaya xilaf olan işlərdən məhrum olmağın səmər və nəticəsidir ki, müsəlman qadını öz vücudunda olan saf və ülvi eşqin ancaq bir hədəfə və bir tərəfə yönəldərək tam varlığı ilə yalnız öz daimi olan həyat yoldaşını sevər, ülvi məhəbbbətlə dolu olan qəlbi onu özünün qanuni olan halal ərinə o qədər

əlaqəli və mehirli olar ki, lazım gəlsə bu yolda hər bir fədakarlığa hazır olar.

**Müsəlman olmayan qadının 2-ci keyfiyyəti:**

Müsəlman qadına xas olan utancaqlıq, sadəlik, hər yetənə özünün gözəlliyini nümayiş etdirməkdən çəkinmək kimi adətlər qərbli qadın üçün geridə qalmağın və dərrakəsizliyin əlaməti sayılır. Şəhvani və ehtirasi həvəs və istəklərini doyuzdurmaq və həyalı müsəlman qadınının qabağını alan bütün qeyd və şərtlər, habelə məhrumiyyətçiliklər onlar üçün həddi hesab növündən sayılmır. Müsəlman olmayan qadın isə cinsi və nəfsani hisslərin icrasında tam azadlığa və istiqlaliyyətə malik olaraq bu münasibətlərdə cinsi kommunizmə qadirdirlər (kimnən istəsə). Bu hisslərin tələbinin heyvani azadlıq yolu ilə edilməsini yüksək cinsi mədəniyyətinin təzahürü saydıqlarına görə az davamlı, tez sovuşan, müddəti az olan, dəyişkən eşqə malikdirlər.

**Müsəlman qadının 3-ci keyfiyyəti:**

Şəriət və din nöqteyi-nəzərdən olan nigaha malikdir. Yəni, Allah və evlənmələrin arasında bağlanmış möhkəm əhdi-peymana malik olan nigah sahibidir. Habelə təmiz və saf olan eşqin və sevginin pak və ülvi olan mehri-məhəbbətin əsasında qurulmuş ailə nigahına malikdir. Müsəlman qadına islam icazə vermir ki, ailə qurmaq üçün səbəb və əsas meyarı ərinin pul və sərvətini, yəni məqam və rütbəsini arasın. İslam kişiyə və

qadına evlənməyə bais olan mühüm amili, onun cismani gözəlliyini, pulunu, nəslini və dövlətini əsas şərt kimi götürməməyi tövsiyə edir. Hətta əziz Peyğəmbərimiz bu səbəbə görə evlənənləri məzəmmət edərək onların belə əsassız və lüzumsuz olan peyvəndlərdə öz kam və arzularına çatmayacaqlarını xəbər vermişdir. Müqəddəs İslam evlənməyi və nigahı insan icmasının əsas və başlıca bünövrə amili sayır. Ona görə də pul və zahiri gözəllik, habelə məqam xatirinə olan evlənmələr uzun müddət ola bilməz. Çünki zahiri gözəllik, pul, sərvət və vəzifə müvəqqəti olan, tez-tez dəyişən və daimi gözlənilən bir xoşagəlməz təsadüfün nəticəsində aradan gedə bilər. Zaman və şərait bu amilləri göhnəldib soldura bilər. Lakin əxlaqa, imana, saf mənəviyyata görə qurulan və bu cür insani gözəllikləri evlənmənin əsas amilləri qərar verərkən ailə quran şəxslərin əbədi məhəbbətləri tükənməz və solmaz olar. Müsəlman qadınları öz həyat yoldaşlarını yaxşı insani və islam əxlaq və təbiətinə görə, habelə onun xoş rəftarlna görə seçib müəyyən etmək hüququna malikdirlər.

## Müsəlman olmayan qadının 3-ci keyfiyyəti:

Titrəyən və sarsılan ailə peyvəndinə malikdirlər. Onların davamsız və möhkəm olmayan ailə bağlığına səbəb bu qadınlarda evlənməyə gətirib çıxaran eşqin və məhəbbətin tez sovuşan və müvəqqəti tərzdə olmasıdır. Bunlarda eşq və məhəbbətin müvəqqəti olmasına səbəb odur ki, əksəriyyətinin məhəbbəti səthi olub, kişinin pul və malına bağlıdır. Daha doğrusu, təmiz və müqəddəs deyildir.

## Müsəlman qadının 4-ci keyfiyyəti:

Müsəlman qadın özünü yalnız ərindən və ailəsindən ötrü bəzəyib zinətləndirə bilər. Ona öz gözəlliyini nümayiş etdirmək yalnız özünə məhrəm olan adamların hüzurunda olar.

**Müsəlman olmayan qadının 4-ci keyfiyyəti:**

Onlar özlərinə zinət vurarlar. Lakin bu zinət və bəzəklər müsəlman qadınında olduğu kimi yalnız məhrəmlər üçün deyil, məhrəm və naməhrəmliyindən asılı olmayaraq bütün şəxslərə çəkinmədən göstərilmək üçündür. Onlar zinət və bəzək vurub küçəyə və xiyabanlara çıxaraq etiras və şəhvət düşgünlərinin nəzərlərini özlərinə cəlb etməyi bir iftixar və fəxr hesab edirlər. Hər hansı bir qadın özünü zinətləndirərək daha çox şəhvət pəhlivanlarının nəzərini cəlb edib onları valeh edərsə, o özünü başqalarından məharətli və xoşbəxt sayar. Kənar şəxslərin şəhvətini hərəkətə gətirən öz əza və üzvlərini çılpaq tərzdə, utanmadan nümayiş etdirən bu qadının ancaq gündə birinin etiraslı ağuşunun qonağı olmaqdan başqa müqəddəs hədəfi yoxdur. Lakin əfsuslar olsun ki, qadının namus səngəri sayılan və tarix boyu yüz min illərlə qan axıtmaqlarının qabağını alan baş örpəyi cəhalət ünsürü sayılaraq yüz minlərlə cəhalət və fəhşa mərkəzlərini, gecə əyləncələrini bizim müsəlman qadınlarının da üzünə açdı. Dünya mədəniyyətinin mütərəqqi baniləri olan nizamilər və fizulilərin ilk tərbiyəçisi və müəllimi olan anaların müqəddəs geyimlərini bizim müsəlman qadınlarımız çox əfsus ki, mədəniyyətin qabağını alan bir libas kimi yerə basdırdılar. Nəticədə Qərb dünyasının «azadlıq» və mədəniyyət adlandırdığı yeni şəhvət və həvəs azadlığı adlı bir dünyaya qədəm qoydular. Qərb dünyasının qadınlarının adət

etdikləri kimi, özlərinin hansısa bir təmiz və möhkəm təmələ malik ailənin qurulmasına səbəb ola bilən cismani gözəlliklərini şəhvət düşgünləri olan əyyaşlara satmağa başladılar. Onlar (Qərb qadınları) öz gözəlliklərini və insani keyfiyyətin əvəzsiz şərəfinin amili, sayılan namuslarını, bir dəfə restoranlarda yeyib-içib keflənməyin əvəzində sataraq vərdişlərini öz müridləri olan müsəlman qadınlarına hədiyyə və azadlıq ünvanı ilə bağışladılar. Vaxtı ilə 14-15 yaşlı yeniyetmə qızları islamın müqəddəs qanunlarının izi ilə daimi olaraq ərə verməyi qadına olan misilsiz zülm kimi qiymətləndirən həvəs əsirləri indi müyəssər ola biliblər ki, bu yaşda hətta bundan kiçik olan qızları gecə əyləncələrinə və barlara çəkərək hər gecə özlərindən çox yaşlı olan bir və ya bir necə kişinin etiraslı ağuşunun qonağı eləsinlər. Budurmu qadın «azadlığı» və mədəniyyəti? Bəşəriyyətin ən yaxşı və bacarıqlı ilk tərbiyəçisi sayılan ana və ya qadın az yaşlarından başlayaraq heyvani və şəhvani həvəs söndürülənlərin əlində oyuncağa çevrilir. Bunlar qadını bayağı və adi bir şey eləyərək güzaranı üçün lazım olan vəsaiti əldə etməklə yeganə yolu Qərb qadınları kimi fəhşa işlərində əldə etməkdə görürlər.

## Müsəlman qadının 5-ci keyfiyyəti:

Səfərdə olan mirvari kimidir, necə ki, Quran buyurur: ***«(Qadın) əl düşməmiş, toxunulmamış, bakir lölö kimidir, yəni islam hicabına riayət etdiyinə görə onun gözəlliyin xəyanətkar nəzərlərdən amanda qalmışdır».*** Müsəlman qadın öz gözəlliyinin və bədəninin görülməsi qadağan olunan yerlərini həya, iffət və islam hicabı ilə səngərə alıb naməhrəm şəxslərin nəzərindən mühafizə edərək sədəfi soyulmamış bir mirvari kimi qalır. İslam qadını ictimaiyyət içərisinə çıxmaq və

içtimai işlərlə məşğul olmaq hüququna malikdir. Lakin bədən üzvlərindən üz və biləng açıq qalmalı, ondan qalan hissələri örtülü olmalıdır. Onun cismani gözəlliyini seyr edib, ləzzət aparmaq imkanından özgələri məhrumdurlar. İslam qadınının gözəlliyi yalnız ailə mühutində və ya evlənmə zamanı qanuni həyat yoldaşı olan və bir sıra öhdəliklərin altına girən şəxs görə bilər. İslam içtimai mühitində zina (qeyri-qanuni cinsi əlaqə) istisna olmaq şərti ilə naməhrəm kişilərin nahaqca və hədər yerə əvəzsiz şəkildə seyr edib nəzərə, eşitməyə və toxunmaya mənsub ləzzət aparmağı halal bilirmi? Xeyr! Müqəddəs islam dini qadına şərafət və izzət bağışlayıb onun namusunu və şəxsiyyəini hifz edərək ondan özgələrinin bu kimi ləzzətlər aparmasını haram etmişdir. Onun öz heysiyyat və ləyaqətini xəyanətdən hifz etmək ünvanı ilə bir hicab adlı zirehə bürünməyi lazım bilmişdir, nəticədə təcavüzdən və hər bir növ cinsi fəsad və əxlaqsızlıqdan amanda qalmışdır. Necə ki, həkim olan Allah mirvarini sədəfin içində yaradır ki, ta yad cisimlərin və əllərin sədəməsindən qorusun. Qadının da hicab adlı sədəfin içərisində qalmasını əmr edərək, ondan yalnız o mirvari sədəfin zəhmət çəkib kəşf edən və ona həqiqi sahib olan şəxdin istifadə etməsi caizdir.

### Müsəlman olmayan qadının 5-ci keyfiyyəti:

Cəvahirata bənzəyən saxta bir cəvahirat kimi örtüksüz bir tərzdə hər yerdə gözə dəyməsidir. Yəni o qədər özlərinə zərqi-bərq və zinət vururlar ki, ləl-cəvahir kimi işıq saçırlar. Onların gözəlliklərindən hər bir şəxs maneəsiz halda ləzzət apara bilər. Ləl-cəvahiratı isə əldə etməyə əcvəlcə zəhmət lazımdır, sonra isə mühafizə etməyə səy və dəyanət. Mümkündür bunların sahibi olmadan elə çox zəhmət və əziyyət tələb etməyən bir

halda bu cür «azad və müstəqil» qadınların cəvahirə bənzər gözəlliklərindən hər kimi istəsə ləzzət aparsın.

### Müsəlman qadının 6-ci keyfiyyəti:

Özünün bakirəliyini qanuni ərinə təqdim edər. Müsəlman qadını malik olduğu həya və namusun ona verdiyi qeyrətin nəticəsində özünü daima biganə və hədərə olan eşq-məhəbbətdən qoruyar. O öz təbiətində nəfsinin ləzzətlərə tələbatı olmasına baxmayaraq bütün bu kimi hisslərini iffət adlı mənəvi bir zindana salaraq daimi olaraq sarsılmaz və saf bir məhəbbətin yolunu gözlər. Yalnız belə pak və müqəddəs bir məhəbbət müəllifi meydana çıxanda özünün namus səngərində becərdiyi eşqini birinci dəfə olaraq qanuni ərinə bağışlar. İctimai aləmdə əgər cinsi fəsad edənlər və əyyaşlar onu məcburi olaraq insaniyyət və insani əxlaqın ziddinə olaraq işlərə boyun qoymağa təhrik eləsələr də özünü müdafiə edən vaxt həyatını belə qurban verməyə hazır olar.

### Müsəlman olmayan qadının 6-ci keyfiyyəti:

Özünün axırıncı eşqini bir çoxları ilə uğursuz məhəbbət sərgüzəştindən çıxandan sonra daimi olan ərinə təqdim edər, yəni cinsi ləzzətlərdən kam almaqda mütləq azadlığa malik olduğundan müxatəbləri tez-tez dəyişən, səthi olan eşqini hər kimə gəlsə belə elan etməklə müstəqil və heç bir qeyd-şərtə bağlı olmaz.

Qərb dünyasının tanınmış filosofu Berterad Rasil hətta ərli qadınların belə xoşu gəldiyi kişilərə öz eşqini zahir etməkdə maneəsiz və tam hüquq sahibi olmalarının tərəfdarıdır. O belə bir fikir yürüdür ki, adam puldan, sərvətdən və maldan pay və bəxşiş verdiyi kimi, namusdan da, yəni özünün qanuni olan arvadından da özgələrə cinsi ləzzət üçün pay və hədiyyə verə bilər. O hətta bu çirkin, qeyrət xilafına olan alçaq işi heç də qəbahət, abırsızlıq və xəyanət növündən saymır. Bəlkə də bu işi kişiyə iftixar gətirici olan bir iş kimi hesab edir. Bəli, bizim qibtə elədiyimiz yüksək mədəniyyət sahibi olan qərbli qabaqcıllarımız qadının öz namusunu hifz edərək ismətli olmasını bəxillikdən, mədəniyyətcə geridə qalmağın təsirindən təsəvvür edirlər. Bu da onların qadınlarını öz eşqlərini maneəsiz və hədərə olan bir şəkildə hər kimə olursa-olsun, bir saatlıq da olsa belə elan etməyə tam səlahiyyət verir. Buna görə də Qərb qadınlarının əksəriyyəti bir çoxları ilə gecə-gündüz davam edən eşqbazlıqdan sonra axırıncı eşqlərini hansısa bir biqeyrətə təqdim edər.

## Müsəlman qadının 7-ci keyfiyyəti:

Uca tutmaqlığın və qədrli-qürbətli sayılmağın, habelə tükənməz məhəbbətin nişanəsi olan mehriyyə almaq hüququna malikdir. İslam qanunu qadının bütün maddi və mənəvi ehtiyaclarını kişinin boynuna qoymuşdur. İslam bu mehriyyəni kişinin qadına sahib olmaq ünvanı ilə deyil, bəlkə də onu sədaqət nişanəsi ilə Allah yolunda olan bir bəxşeyiş kimi qərarlandırmışdır. Bu gün psixoloqlar bu işin əhəmiyyətini tədqiq edəndə belə nəticəyə gəlmişlər ki, ər tərəfindən qadına hədiyyə kimi verilən mehriyyə bunların arasında dərin əlaqələr və eşq icad etməkdə çox güclü təsirə malikdir. İslam həmçinin

mehriyyənin miqdarını yalnız qadın ilə kişinin arasında razılıq hasil olan tərzdə səhih bilir. Mehriyə ünvanı ilə aşağıdakıları göstərmək olar:

1. Ev. 2. Bağ. 3. Nağd pul. 4. Qızıl-gümüş, həmçinin aşağıdakı şeylərin mənfəətini və gəlirini mehriyyə qədər verə bilərlər. Evin, bağın, heyvanın və ya başqa cinslərin habelə bəzi şeyləri saxlayıb becərilməsini və tikilməsini mehriyyə qərar vermək olar. Ev tikməyi, heyvan saxlamağı, bağ-bağca becərməyi və qeyrləri ilə təyin etmək olar. Məsələn: sənət, peşə və dini nöqteyi-nəzərdən olan halal elmlər. Lakin bununla belə islam qanunda elan edir ki, mehriyyə üçün xüsusi və müəyyən miqdarda olan məbləğ təyin olunmamışdır. Bu kişi və qadının öz aralarında təyin edilir. Lakin o qədər az-çox təyin etməsinlər ki, mehriyyə bir mal olmaqlıq və sayılmaqlıq həddindən çıxsın. Həmçinin tərəflərin imkanı olmayanda mehriyyəni bir-birinə bağışlamaq və ya bir borc ünvanı ilə qərarlaşdırmaq hüququ vardır. İslam dininin qadına etdiyi əvəzsiz və misilsiz olan xidmətlərindən biri budur ki, tərəflər arasında daimi olan nigahda ancaq kişinin boynunda təklif və vəzifədir ki, öz xanımının ruzusini istirahət və məişətini təmin eləsin, hətta ailənin sahibinin maaş qazanmağını 70 növ olan ibadətlərdən sayır. Bu işə aid Həzrəti İman Rzadan bir hədis vardır: «Əgər bir şəxs ailəsinə ruzi qazanmaq üçün vətənindən uzaq yerə səfər eləsə onun bu səfəri ibadətdir, çəkdiyi nəfəs təsbih kimi sayılır. Növbəti işə getmək üçün yatarsa, onun bu istirahəti ibarət sayılır. İş vaxtı qədəmləri bütün hərəkət və fəaliyyətləri ibarət sayılır. Birdən ruzi əldə edəndə və ya ruzi qazananda həlak olub aradan getsə şəhid sayılır. Çünki, o, öz ailəsinin maddi və mənəvi ehtiyaclarını əldə eləyəndə ilahi bir təklif və vəzifəni yerinə yetirmiş əsnada olmuşdur».

Bəli, İslam əziz qadını xanım qərar verərək onu maddi və mənəvi xidmətini kişinin öhdəsinə qoymuşdur. Lakin birdən zəruriyyət peyda olsa, yaginki ailəyə qazancı ödəməsə qadın da içtimai və fərdi işlərdə islami hicaba riayət etmək şərti ilə işləyib maaş qazana bilər. Lakin bu işi ehtiyac olmayan surətdə onun üçün təklif və vəzifə bilmir.

### Müsəlman olmayan qadının 7-ci keyfiyyəti:

Evlənmə vaxtı girami və əziz sayılmağın nümunəsi olan mehriyyə almaq hüququndan məhrumdurlar. Onların nə dini, nə də dünyəvi qanunlarında belə bir şey yoxdur ki, ailənin maaşını qazanmaq yalnız kişinin öhdəsinə bir vəzifə ünvanı ilə tapşırılsın. Qadınlar öz etiyaclarını çox vaxt özləri təmin edirlər. Yüngül işlərdə alınan əmək haqqı ehtiyacın hamısını təmin etməyəndə, Qərb qadınlarının bəziləri məcburdular qadının fiziki qüvvəsi və nəcibliyi ilə münasib gəlməyən ən ağır işlərə belə girib işləsinlər. Bu gün qadın azadlığının tərəfdarı olan Qərb cəmiyyətinin qadınlarını dəmir yolunda və tikinti idarələrində sıravi fəhlə işləməkdən tutmuş, kömür şaxtalarında qazmaçı vəzifələrində işləyən görmək olar. Bəziləri isə maddi güzaranlarını təmin etmək üçün daha asan və şərəf olan bir işi özlərinə peşə seçmişdilər. Yəni, özlərini hər gecə bir şəxsə satar, bu yolla maddi ehtiyaclarını təmin edərlər.

### Müsəlman qadının 8-ci keyfiyyəti:

Müsəlman qadın ən əvvəl öz vaxtının çox hissəsini ailənin bəzi mühüm olan iş və vəzifələrinə, məsələn, övlad tərbiyəsinə sərf edər. Vaxtının qalan hissəlirini isə ictimai işlərinə sərf

edər. İslam qadını öz uşağı üçün ən behtər və yaxşı bir tərbiyəçidir. İlahi ustad buyurubdur: uşaq üçün ən gözəl və laiqli tərbiyəçi onun öz anasıdır. Gələcək içtimai həyatın bir nümayəndəsi sayılan təzə doğulmuş uşağın ilk ibtidai mədrəsəsi (məktəbi) ana qucağıdır. Mümkündür ki, ana bir uşaq tərbiyə edib cəmiyyətə versin ki, o uşaq gələcəkdə bir ölkəni idarə etmək səlahiyyətinə malik olsun. Belə olan surətdə əgər uşaq yaxşı və insani tərbiyə görmüş olarsa idarə etdiyi ölkəni və bütün dünyanı səadətə çatdırır. Lakin birdən yaxşı və humanist tərbiyə görməsə öz ölkəsini və cəmiyyətini xoşgəlməyən hadisələrin icra və sınaq meydançasına çevirər. O Həzrət buyurubdur ki, qadının öz övladına tərbiyəçi olmaq peşəsinin o qədər savabı var ki, vallah mən bu savabı dil ilə ifadə edə bilmərəm. Ana öz övladı üçün ən gözəl və layiqli və hamıdan əfzəl olan bir müəllimədir. Uşaq anasından gördüyü tərbiyəni və əxlaqı heç kəsdən, hətta atasından da görmür. Çünki uşağın vaxtının çox hissəsi ana ilə birgə keçir. Ata, uşaq ilə ana qədər təmasda ola bilmir. Nəticədə uşaq anasının hər bir hərəkətini, danışığını, oturuşunu, ictimai, fərdi və məişəti əlaqələrini özü üçün istinad yeri, tərbiyə meyarı qərar verir. Allah eləməsin, birdən ananın tərbiyəsi fəsad, əxlaqi rəzilə olarsa, belə olan surətdə təsəvvür eləyin ki, uşağın tərbiyə və əxlaqı hansı səviyyədə və keyfiyyətdə olar.

## Müsəlman olmayan qadının 8-ci keyfiyyəti:

Onlar vaxtlarının çoxunu ictimai işlərdə pul qazanmağa sərf edərlər. Vaxtlarının yerdə qalan hissəsini isə evdarlığa və ya övlad becərməylə məşğul olarlar. Yarmarka və mağazalda müştəri cəlb etmək üçün maniken kimi Qərbli ana nəyin bahasına olursa-olsun öz gözəlliyini hifz edər. Bu yolda hətta

övladını becərməkdə və ona xidmət etməkdə nəvazişini əsirgəyər. Özünün laklı əl-ayağını uşağa xidmət etmək üçün korlamaz. Nəticədə onsuz da günün çox hissəsini uşaq bağçasında ana mehrindən uzaq olan uşaq, mərhəmətli ana nəvazişindən və xidmətindən məhrum olar. Beləliklə, ata-ana öz uşağına tədricən yadlaşar. Uşaq da ata və anasının əvəzsiz tərbiyəsindən bəhrə apara bilməz. Belə olan surətdə uşaq əlacsız pansionlarda, doğma ana məhəbbətindən uzaqda böyüyən hər birində rəzilə əxlaq olan uşaqların xasiyyətindən kollektiv bir tərbiyə əxz edər. Günün çox hissəsini ənlik-girşan sürtməyə və bəzənməyə sərf edən üzdəniraq süni ana sayılan mürəbbiyələrdən isə uşaq onun payını və əşyasını oğurlamaq dərsindən başqa bir şeyin təlimini ala bilməzlər.

### Müsəlman qadının 9-ci keyfiyyəti:

Özü və ailəsi üçün xörək bişirib, paltar tikmək və başqa ustalıq məharətini göstərmək qabiliyyətinə malikdir. Müsəlman qadını öz təbiətində olan fitri və intisabi (sonradan öyrənilən) məharətlə, ailəsinə və ərinə xidmət etməyi hər bir başqa şəxsə xidmət etməkdən üstün tutar. Müsəlman qadını öz evində olan heyvandarlıq və xırda təsərrüfatçılıq işini ərinin göstərişi olmadan belə öz təbii evdarlıq hissinin hökmü ilə könüllü və ixtiyari bir tərzdə icra edər.

### Müsəlman olmayan qadının 9-ci keyfiyyəti:

Bu qadınlar restoranlarda, fabrik və zavodlarda, habelə dövlət müəssisələrində öz gəlirlərinə qulluq edib pul qazanmağı ərinə və ailəsinə qulluq etməkdən üstün tutarlar.

**Müsəlman qadının 10-ci keyfiyyəti:**

Onun özü və ailəsi evdə bişən pakizə təzə yeməklərdən istifadə edərlər. Həmişə dadlı ev yeməklərilə vərdiş eləmiş müsəlmanlar çox vaxt başqa yerlərdə özgə adamların bişirdiyi yeməyi yeməzlər.

**Müsəlman olmayan qadının 10-ci keyfiyyəti:**

Yemək bişirməyə vaxtının və ya marağının olmadığından çox vaxt naçar qalıb restoranlarda bişən xörəklərdən və ya süni yeməklərdən biri olan konserv və kolbasadan istifadə edərlər.

**Müsəlman qadının 11-ci keyfiyyəti:**

Özünə və ailəsinə paltar tikməkdən, yemək bişirməkdən və başqa sənətkarlıq məharəti ilə xidmətdən ləzzət aparar. Bu xidmətləri ilə özünə qarşı ərinin məhəbbətini daha möhkəm və əbədi eyləyər.

**Müsəlman olmayan qadının 11-ci keyfiyyəti:**

Çox vaxt başqasının tikdiyi libasdan və hazırladıqları xörəklərdən və başqa vasitələrdən istifadə edər. Onun istifadə elədiyi şeylərin çoxunu özgələr hazırladığından bu şeyləri hazırlamaqda olan ləzzətdən məhrumdurlar.

**Müsəlman qadının 12-ci keyfiyyəti:**

Müsəlman qadını özünün şəxsi yaradıcılıq zövqü ilə məişətinə yeniliklər gərirərək bəzək və başqa zinət vasitələrindən istifadə orta mövqe seçər. Onları ailə büdcəsinin imkanına baxmayaraq gündə yeni bir libas geyib zinət vurmaqdan daha çox ailənin maddi imkanının artması və bunun nəticəsində də məişət şəraitinin yaxşılaşdırılması düşündürər. Müsəlman qadını yalnız gələcək həyatı üçün yox, bəlkə də övladlarının gələcək həyatı və yaşayışı üçün də fikir edib məsləhət düşünər. Bütün bu səbəblərdən də həmişə əlavə olan yersiz və luzumsuz xərclərin qabağını alar. Əldə qalmış və qənaət olunmuş maddi imkanlardan gələcəkdə öz övladlarının güzaranlarına xərc eləmək üçün bir yerə yığıb cəm eyləyər.

**Müsəlman olmayan qadının 12-ci keyfiyyəti:**

Əlinə gələn maddi gəlirin çox hissəsini bər-bəzəyə və özünü nümayiş etdirməyə lazım olan yeni dəbli libasların alınıb geyilməsinə və habelə restoranlarda yeyib-içməyə sərf edər. Bir yanda da adını tənhalıqdan və yalqızlıqdan xilas olmaq üçün saxladığı itlərin yemək içməyinə, səhiyyə baxımından onların sağlamlığını təşkil etməyə lazım olan işlərə çoxlu məbləğdə pul xərclər. Evin içində saxlanılıb naz ilə becərilən itlər təzə insan yeməyindən başqa bir şey yeməzlər. Özü də belə bir itin hər dəfə yediyi yeməyə çəkilən xərclər ilə adi bir adamın iki dəfə yeməyini alıb hazırlamaq olar.

**Müsəlman qadının 13-ci keyfiyyəti:**

Müsəlman qadınların öz övladlarını mehri-məhəbbətilə dolu olan isti ana ağuşunda becərib tərbiyə etmək keyfiyyətinə malikdir.

İlahi ustad demişdir ki, ana üçün övladını öz qucağında tərbiyə etməkdən şərəfli bir vəzifə yoxdur. Müqəddəs islam qanunlarında belə bir hökm vardır. Öz uşaqlarını tərbiyə etməyə atamın maddi imkanı olan surətdə ana ondan haqq və muzd ala bilər. Əgər yad bir adam mürəbbilik eləməyə tapılsa belə, bu işə uşağın anası hamıdan layiqli olar.

**Müsəlman olmayan qadının 13-ci keyfiyyəti:**

Onların əksəriyyəti öz uşaqlarını pansionlarda və başqa adamların yanında saxlarlar.

**Müsəlman qadının 14-ci keyfiyyəti:**

Həyat yoldaşının xidmətində durmaqla və evdarlıq qabiliyyəti nəticəsində, habelə ailə daxilində rahatlıq yaratmaq məharətinə görə ərinin ictimai işlərdə olan fəaliyyət qüvvəsini bir neçə dəfə artırar.

**Müsəlman olmayan qadının 14-ci keyfiyyəti:**

Onların macal və imkanları yoxdur ki, ərlərinə mənəvi qüvvət verib onların ictimai işlərə qarşı olan marağını və işləmək bacarığına yüksəltsin. Barlarda və gecə əyləncələrində vaxtlarının çoxunu keçirəndən sonra əlavə bir vaxt qalmır ki, evdarlıq edib ərinin və ailəsinin qulluğunda dursun.

**Müsəlman qadının 15-ci keyfiyyəti:**

Müsəlman qadınlarının yalqız və tənha yaşamaq sarıdan qəm və niskili yoxdur. Bu ona görə belədir ki, həmişə ərilə birgə yaşamaq səadətinə malik olan isti ailə ocağına malikdir. Daima ərini, övladlarını, ata-anasını, habelə sair qohumlarını öz dövrəsinə cəm eləyər. Müsəlman qadınları ərindən ayrı tək və tənha yaşamağı həyatda başsız qalmaq kimi sayılan qəbul olunmaz bir iş kimi hesab edərlər. Həmişə istəyərlər ki, uşaqları və övladları onun gözündən uzaq olmasın, hətta övladları ailə qurandan sonra da istər ki, öz həyətində məskən salaraq onun dövrəsindən ayrılmasınlar. Müsəlman qadını öz ata və anası ilə, qaynana və qaynatası ilə birgə bir yerdə yaşamağı hər şeydən üstün tutar.

**Müsəlman olmayan qadının 15-ci keyfiyyəti:**

Yalnız öz üçün yaşamağın nəticəsindən olan tənhalıq və yalqızlığın qəmindən, habelə ata və anasından, qohumlarından və sairə övladlarından ayrı yaşamağın niskilli səbəbindən evdə it-pişik saxlamağa və alkiqol içkilərə pənah aparar.

**Müsəlman qadının 16-ci keyfiyyəti:**

Həmişə öz ata və anasına yüksək ehtiram bəsləyərək onları öz məhəbbətlərinin və saf niyyətli yaxşılıqlarının müxatəbi qərar verər. Belə və bu kimi xidmətlərin nəticəsində və onların müqabil və qarşılıqlı olan kömək və yardımlarından faydalanıb mənfəət aparar. Müsəlman qadını ata və anasından həyat boyu əlaqəni kəsmədiyindən onların ağır və xəstə olan günlərində təmənnasız və dəvətsiz xidmət edər və buna görə də həmişə ata və anasının ehsan və bəxşeyişlərinin də diqqət mərkəzində olar.

**Müsəlman olmayan qadının 16-ci keyfiyyəti:**

Ata və anadan uzaqlaşdığından onların qarşılıqlı olan kömək və yardımından məhrumdurlar. Onların öz valideyinləri ilə gediş-gəlişi olmadığından övladın ata-anadan, ata-ananın isə öz övladından xəbəri olmaz. Arada olan gediş-gəlişin uzun müddətli və fasilələr ilə olması övlad ilə valideyinlər arasında soyuq münasibətlərin əmələ gəlməsinə səbəb olar. Hətta bu münasibətlər o qədər zəif və fasiləli olar ki, ata-anası xəstələnən zamanda və ya vəfat edəndə onların övladlarına teleqramma vasitəsilə yad bir adam kimi xəbər verərlər.

**Müsəlman qadının 17-ci keyfiyyəti:**

Müsəlman qadını bir məqsəd ilə oxuyub elm, təhsil edər ki, gələcəkdə bacarıqlı nazir, vəkil və ya həkim olsun və öz xalqına, ictimaiyyətinə layiqli və sədaqətli xidmət eləsin. Müsəlman qadının elm öyrənməkdə əsas hədəf və əmalı cəmiyyətin məhrum təbəqələrinə nicat verməkdir. Habelə onun elm öyrənməkdə olan müqəddəs hədəflərindən biri də öz nəfsinin şərindən və həvavü həvəsinin zülmündən mənəviyyatını amanda qoymaqdır.

**Müsəlman olmayan qadının 17-ci keyfiyyəti:**

Onların əksəriyyətinin elm öyrənməkdə məqsədi nəyin bahasına olursa-olsun özlərinə pullu bir sənət və məqam tapmaqdır. Müsəlman olmayan qadınların oxumaqdan məqsədi pullu bir sənətin diplomunu ələ keçirərək onsuz da məhrumiyyətçilik içərisində yaşayan xalqını daha da artıq mərhumiyyətçiliyə salmaqdır.

Müsəlman qadını elm öyrənməsi bunun əksinə olaraq Allahı tanıyandan sonra ən yaxşı əməl sayılan İslam adlı bir məktəbə payibənd olmasından irəli gəlir.

**Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh**

**Bismilləhir Rahmənir Rahim.**

Əziz bacılarımız, analarımız, Fatimeyi-Zəhra (s.ə) buyurmuşdur:

**«Qadının ən gözəl zinnəti hicabdır».**

Əziz xanımlar, əcnəbi millətlərin bizim dini və milli adət və əxlaqımıza yad olan geyim və bəzəklərindən uzaqlaşın. İki dünya qadınların xanımı, İslam peyğəmbərinin ciyərgüşəsi Fatimeyi-Zəhranın (s.ə) vəsiyyətinə əməl edin ki, bu dünyada və axirətdə Allahın lütfündən uzaq olmayasınız!!!

# MÜNDƏRİCAT

MÜQƏDDİMƏ
İSLAMDAN QABAQKI DÖVRDƏ QADINA OLAN ZÜLMLƏR
İSLAM DÜNYA QADINLARINA NİCAT BAĞIŞLAYANDIR
KAPİTALİZM DÜNYASINDA QADINA QARŞI OLAN ZÜLMLƏR VƏ ONUN MƏZLUMİYYƏTİ
KOMMUNİZM HAKİM OLAN ÖLKƏLƏRDƏ QADINA QARŞI OLAN ZÜLMLƏR VƏ ONUN MƏZLUMİYYƏTİ
**II FƏSİL**
Müsəlman qadının 1-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 1-ci keyfiyyəti:
Müsəlman qadının 2-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 2-ci keyfiyyəti:
Müsəlman qadının 3-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 3-ci keyfiyyəti:
Müsəlman qadının 4-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 4-ci keyfiyyəti:
Müsəlman qadının 5-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 5-ci keyfiyyəti:
Müsəlman qadının 6-ci keyfiyyəti:

Müsəlman olmayan qadının 6-ci keyfiyyəti:
Müsəlman qadının 7-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 7-ci keyfiyyəti:
Müsəlman qadının 8-ci keyfiyyəti:

Müsəlman olmayan qadının 8-ci keyfiyyəti:
Müsəlman qadının 9-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 9-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 10-ci keyfiyyəti:
Müsəlman qadının 11-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 11-ci keyfiyyəti:
Müsəlman qadının 12-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 12-ci keyfiyyəti:
Müsəlman qadının 13-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 13-ci keyfiyyəti:
Müsəlman qadının 14-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 14-ci keyfiyyəti:
Müsəlman qadının 15-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 15-ci keyfiyyəti:
Müsəlman qadının 16-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 16-ci keyfiyyəti:
Müsəlman qadının 17-ci keyfiyyəti:
Müsəlman olmayan qadının 17-ci keyfiyyəti: